# MƏZUNLARIMIZIN SORAĞI

**Çinarlar şəhəri Göyçayın qoynunda qədim bir bina var. Həmişə qələbəliyi ilə seçilən bu bina məşhur tarzən, musiqişünas, filologiya elmləri doktoru, professor Arif Sirac oğlu Məmmədovun adını daşıyır.**



Bu binada Göyçay Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində fəaliyyət göstərən Uşaq Musiqi məktəbi yerləşir. Göyçay uşaq musiqi məktəbi 1957-ci ildə yaranıb. O vaxt 2 ixtisas üzrə tədrisə başlayan musiqi məktəbi Mədəniyyət və Turizm Şöbəsinin müdiri Sahib Şükürovun rəhbərliyi ilə indi 6 ixtisas üzrə fəaliyyəti genişləndirərək gündən-günə təkmilləşir və öz profilini zənginləşdirir. Məktəbə yeni təyin olunmuş direktor Rövşən Zamanov məktəbin inkişafı üçün öz bacarıq və istedadını əsirgəmədən yeni-yeni nailiyyətlərə doğru irəliləyir.

Zamanov Rövşən Gülməmməd oğlu 1954-cü ildə Göyçay şəhərində anadan olub. 1965-1969-cu illərdə Göyçay uşaq musiqi məktəbində tar ixtisası üzrə təhsil alıb, 1969-cu ildə Asəf Zeynallı adına Bakı musiqi texnikumuna daxil olub. 1973-cü ildə həmin məktəbi tar ixtisası üzrə bitirib təyinatla Göyçay uşaq musiqi məktəbinə "tar" müəllimi təyin olunub. 1974-1976-cı illərdə hərbi xidmətdə olub. 1982-1987-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib.

R.Zamanov 2008-ci ildən Arif Məmmədov adına Göyçay musiqi məktəbinə direktor təyin olunub. Hazırda musiqi məktəbində dərslər 6 ixtisas üzrə aparılır. Fortepiano, skripka, tar, qarmon, kamança. 2010-cu ildən məktəbdə yeni "Səs" ixtisası üzrə dərslər keçirilir ki, burada uşaqlar xanəndəlik peşəsinin sirlərinə yiyələnirlər...

*(Davamı 51-ci səhifədə)*

# MƏZUNLARIMIMIZIN SORAĞI

(Əvvəli 45-ci səhifədə)

2009-2010-cu tədris ilində məktəbdə 465 nəfər şagird təhsil alır. Hər il məktəbə 80 nəfər şagird müsabiqə yolu ilə qəbul edilir. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 98 nəfər müəllim məşğul olur ki, bunlardan 7 nəfəri ali təhsilli xüsusi ixtisaslı müəllimlərdir.

Məktəbdə dərslər Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş proqramın əsasında keçirilir. Məktəbin iş planına əsasən tədrisin keyfiyyətini artırmaq, şagirdlərin texniki imkanlarını daha da yüksəltmək və inkişaf etdirmək məqsədi ilə il ərzində məktəbin aparıcı müəllimləri: Aydın Qafarov, Afət Məmmədova, Təranə Rizvanova, Həsənağa Kazımov, Xədicə Veysəlova, Səbinə Mustafayeva, Yaqub Mürsəlov, Aygün Mahmudova, Aytən Məmmədəliyeva və başqalarının siniflərində açıq dərslər keçirilmiş, şagirdlərin ifasında klassik musiqi nümunələri dinlənilmişdir.

Musiqi məktəbinin şagirdləri rayonda keçirilən bütün tədbirlərdə yaxından iştirak edir, özfəaliyyət kollektivinin iştirakı ilə rayon əhalisinə maraqlı konsert proqramları təqdim edirlər.

Musiqi məktəbində "Dəşti" uşaq xalq çalğı alətləri ansamblı, "Pöhrə" skripkaçılar ansamblı, müəllimlərdən ibarət "Koroğlu" xalq çalğı alətləri ansamblı fəaliyyət göstərir.

Ansamblın solistlərindən Vüsalə Allahverdiyeva özü piano müəllimsi olmaqla bərabər yüksək saprano səsinə malikdir. Rayonda keçirilən II ənənəvi "Nar bayramı" tədbirlərində iştirak etmiş Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin xüsusi göstərişi ilə musiqi məktəbinin müəllimsi Vüsalə Allahverdiyeva haqqında AzTV-də xüsusi proqram hazırlanmışdır.

28 may Respublika günü münasibətilə Uşaq musiqi məktəbi rayon əhalisi üçün Heydər Əliyev Mərkəzinin qarşısında geniş konsert proqramını ilə çıxış etmiş, sonra R.Rza adına rayon mədəniyyət evində valideynlərin və rayon rəhbərliyinin iştirakı ilə hesabat konserti vermişdir.

Musiqi məktəbinin kollektivləri respublikada keçirilən müsabiqələrdə yaxından iştirak edir. Mingəçevir şəhərində keçirilən Uşaq xor kollektivlərinin Respublika müsabiqəsində rayon musiqi məktəbinin xor kollektivi, Milli Musiqi İfaçılarının IV Respublika müsabiqəsində məktəbin tar müəllimi Fərid Mehdiyev, Bərdə şəhərində Uşaq muğam ifaçılarının IV Respublika müsabiqəsinin iştirakçısı məktəbin şagirdi Fərid Abdullayev tədbirdə məharətli çıxışına görə Mədəniyyət və Turizm Nazirliyinin xüsusi fəxri-fərmanı ilə təltif edilmiş, müvəffəqiyyətlə çıxış etmişdir.





**İndiyədək məktəbin 3000-dən çox məzunu olub. Məktəbin müəllimlərinin hamısı uşaq musiqi məktəbinin yetirmələridir.**

• **Nəriman MƏLİKOV,**
***Göyçay Mədəniyyət və Turizm Şöbəsinin aparıcı mütəxəssisi***